AZƏRBAYCAN XƏBƏRLƏRİ

# Bir ay öncə həbsdən çıxan Zamin Salayevin yenidən saxlandığı bildirilir

3 dəqiqə öncə




Zamin Salayev

Ötən ay həbsdən azadlığa buraxılan Azərbaycan Xalq Cəbhəsi Partiyası (AXCP) fəalı **Zamin Salayev**in yenidən saxlandığı bildirilir.

Bu barədə ailəsinə istinadla onun müxalif düşərgədən olan dostları məlumat yayıb.

Ailəsinin yaydığı məlumatda vurğulanır ki, Salayevin hal-hazırda harada olduğunu dəqiqləşdirə bilmirlər.

Məsələyə rəsmi qurumlardan münasibət almaq mümkün olmayıb

7 avqust

## Zamin Salayev azadlığa çıxıb

Azərbaycan Xalq Cəbhəsi Partiyası (AXCP) fəalı **Zamin (Əlizamin) Salayev** 3 il 6 aydan sonra azadlığa çıxıb. Bu barədə siyasi fəallar sosial şəbəkədə paylaşım ediblər.

Salayev 2023-cü il mayın 22-də Qaradağ rayon Məhkəməsinin hökmü ilə 4 il müddətinə azadlıqdan məhrum edilmişdi. O, həmin il fevralın 7-də saxlanılıb və Cinayət Məcəlləsinin 221.3-cü (silah və ya silah qismində əşya tətbiq etməklə xuliqanlıq) maddəsi ilə ittiham olunub. AXCP fəalı ittihamı qəbul etmirdi.

## Xatırlatma

AXCP-nin Salyan şöbəsinin sədri Salayev bundan əvvəl — 2020-ci ilin aprelində Salyan rayon Məhkəməsinin hökmü ilə 2 il 3 ay müddətinə həbs cəzası almışdı. Salayev həbsindən bir müddət əvvəl sosial şəbəkələrdə Salyan rayon Polis Şöbəsinin əməkdaşı Həmzə Əzizovla mübahisəsinin videosunu paylaşmışdı. Həmin videoda AXCP üzvü polis əməkdaşını rayonda yaşayan bir qadına təcavüzdə ittiham edirdi. Video yayımlandıqdan sonra polis əməkdaşı Salyan rayon Məhkəməsində xüsusi ittiham qaydasında iddia qaldıraraq onun həbsini tələb etmişdi.

Videoda adı çəkilən qadın isə Əzizova bıçaqla xəsarət yetirdiyinə görə 7 il həbs cəzasına məhkum edilib. O, polisin zorakı hərəkətlərindən müdafiə olunmaq üçün bu addımı atdığını bildirsə də, polis əməkdaşı onun dediklərinin həqiqəti əks etdirmədiyini söyləyib.

Salayev 2022-ci il yanvarın 19-da — Amnistiya Aktı ilə əlaqədar cəza müddətinin başa çatmasına bir neçə ay qalmış azadlığa buraxılmışdı.

---

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur